AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİNİN 2024-CÜ İL ÜZRƏ FƏALİYYƏTİNƏ DAİR HESABATI

AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# MÜNDƏRİCAT

## I BÖLMƏ

## MÜLKİ KOLLEGİYA


1. Ali Məhkəmənin Mülki kollegiyasının fəaliyyətinə dair ümumi məlumat........................5
1.1. Hesabat dövründə ölkə üzrə məhkəmələrdə yekunlaşdırılmış mülki işlər barədə məlumat ........................................................................................................................ 8
1.2. Mülki məhkəmə icraatı nəticəsində qəbul edilmiş məhkəmə aktlarının sabitliyi üzrə kəmiyyət göstəriciləri ............................................................................................. 9
1.3. Mülki kollegiyanın icraatında olmuş mülki işlər üzrə ümumi statistik məlumatlar.......................................................................................................................10
1.4. İcraatda olmuş işlərin növləri üzrə (indeks və predmet üzrə) təhlili ..................................11
1.5. Kassasiya şikayətlərinin mümkünlüyü məsələlərinə dair məlumatlar ............................11
1.6. Mülki işlər üzrə kassasiya baxışının nəticələri barədə ümumi məlumatlar..................14
1.7. Məhkəmə aidiyyətinə dair mübahisələrlə bağlı məlumatlar............................................14
1.8. İcraatda olmuş digər işlər barədə məlumatlar...................................................................15
1.9. Daxil omuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar.......................................................................................................................17
1.10. Baxılmış işlərin kateqoriyaları üzrə təhlili ...........................................................................18
1.11. Kassasiya baxışının nəticələrinin işlərin aid olduğu apellyasiya məhkəmələrinə münasibətdə təhlili.........................................................................................................................20
1.12. Hesabat dövründə Mülki kollegiyada vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları (★★★ statuslu qərarlar) ....................................................................................................21
1.13. Mülki və Kommersiya kollegiyaları tərəfindən məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə qəbul edilmiş qərardadlar ................................ 22
1.14. Hesabat dövründə baxılmış işlər üzrə ödənilmiş dövlət rüsumlarına dair məlumatlar....................................................................................................................... 22


## II BÖLMƏ

## CİNAYƏT KOLLEGİYASI


2. Ali Məhkəmənin Cinayət kollegiyasının fəaliyyətinə dair ümumi məlumat ................24
2.1. Hesabat dövründə cinayət mühakimə icraatında baxılmış işlərə dair statistik məlumat .......................................................................................................................29
2.2. Cinayət mühakimə icraatı nəticəsində qəbul edilmiş məhkəmə aktlarının sabitliyi üzrə kəmiyyət göstəriciləri ..........................................................................30
2.3. İcraatda olmuş işlərə dair ümumi statistik məlumatlar......................................................30
2.4. İcraatda olmuş işlər üzrə icraatın növlərinə (indekslər) dair məlumat........................... 32
2.5. Baxılmış müraciətlərin növlərinə dair məlumat.................................................................. 33

2.6. Baxışdan çıxarılmış, o cümlədən geri götürülmüş müraciətlərə dair məlumatlar....34
2.7. Məhkəmə aidiyyətinin müəyyən edilməsinə dair müraciətlərlə bağlı məlumatlar....36
2.8. Kassasiya müraciətlərinə baxılması nəticələrinə dair ümumi məlumatlar....37
2.9. Kassasiya qaydasında baxılmış cinayət işlərinin kateqoriyalar üzrə təhlili....38
2.10. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar....41
2.11. Baxılmış işlərin kateqoriyalara və apellyasiya məhkəmələrinə münasibətdə bölgüsünə dair məlumatlar....42
2.12. Hökmün icrası qaydasında baxılan işlərin apelyasiya məhkəmələr üzrə bölgüsü....43
2.13. İcraatda olmuş işlərin indekslərinə görə apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar....44
2.14. Baxılmış işlərin nəticələrinin apellyasiya məhkəməsinə münasibətdə bölgüsü üzrə məlumatlar....45
2.15. Ali Məhkəmədə cinayət məhkəmə icraatında qəbul edilmiş vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları (★★★ statuslu qərarlar)....45

## III BÖLMƏ

## İNZİBATİ KOLLEGİYA

3. Ali Məhkəmənin İnzibati kollegiyasının fəaliyyətinə dair ümumi məlumat....48
3.1. Ölkə üzrə inzibati məhkəmə icraatında yekunlaşdırılmış işlər barədə ümumi məlumat....50
3.2. İnzibati məhkəmə icraatı nəticəsində qəbul edilmiş məhkəmə qərarlarının sabitliyi üzrə kəmiyyət göstəriciləri....51
3.3. İnzibati kollegiyanın icraatında olmuş işlər barədə ümumi məlumatlar....52
3.4. İşlərin icraat növləri üzrə (indeks və predmetlər üzrə) bölgüsü....53
3.5. İnzibati kollegiyada yekunlaşdırılmış işlərin iddianın növləri üzrə bölgüsü....53
3.6. Kassasiya şikayətinin mümkünlüyünə dair statistik məlumatlar....54
3.7. Aidiyyət mübahisələri ilə bağlı məlumatlar....55
3.8. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsü....56
3.9. Baxılmış işlərin nəticələrinə dair məlumatlar....57
3.10. Yekunlaşdırılmış işlərin kateqoriyaları üzrə təhlil....58
3.11. Xüsusi icraat işlərinin təhlili....64
3.12. Müvəqqəti xarakterli müdafiə tədbirlərinə dair işlərin təhlili....65
3.13. Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları (★★★ statuslu qərarlar)....66

## IV BÖLMƏ

## KOMMERSİYA KOLLEGİYASI

4. Ali Məhkəmənin Kommersiya kollegiyasının fəaliyyətinə dair ümumi məlumat.....68
4.1. Hesabat dövründə ölkə üzrə məhkəmələrdə baxılmış kommersiya mübahisələri barədə məlumat.....70
4.2. Kommersiya mübahisələri üzrə qəbul edilmiş qərarların sabitliyi üzrə kəmiyyət göstəriciləri.....71
4.3. Kommersiya kollegiyasının icraatında olmuş kommersiya işləri üzrə ümumi statistik məlumatlar.....72
4.4. İcraatda olmuş işlərin növləri üzrə (indeks və predmet üzrə) təhlili.....73
4.5. Kassasiya şikayətlərinin mümkünlüyü məsələlərinə dair məlumatlar.....73
4.6. Məhkəmə aidiyyətinə dair mübahisələrlə bağlı məlumatlar.....76
4.7. Kassasiya baxışının nəticələrinə dair ümumi məlumatlar.....77
4.8. Kommersiya kollegiyasının icraatında olmuş digər işlər barədə məlumatlar.....77
4.9. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar.....80
4.10. Baxılmış işlərin (542 iş) kateqoriyalarına dair statistik məlumatlar.....81
4.11. Kassasiya baxışının nəticələrinin apellyasiya məhkəmələrinə münasibətdə bölgüsü.....83
4.12. Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları (★★★ statuslu qərarlar).....84
4.13. Mülki və Kommersiya kollegiyaları tərəfindən məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə qəbul edilmiş qərardadlar.....85
4.14. Baxılmış işlər üzrə ödənilmiş dövlət rüsumlarına dair məlumat.....85

## V BÖLMƏ

## ALİ MƏHKƏMƏNİN PLENUMU

5. Ali Məhkəmənin Plenumunun fəaliyyətinə dair ümumi məlumat.....87
5.1. Ali Məhkəmənin Plenumunun icraatında olmuş işlər barədə məlumat.....89

AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# I BÖLMƏ

# MÜLKİ KOLLEGİYA

01

## 1. Ali Məhkəmənin Mülki kollegiyasının fəaliyyətinə dair ümumi məlumat

Hesabat ilində Azərbaycan Respublikasının rayon (şəhər) və apellyasiya məhkəmələrinə "Mübahisələndirilən hissədə iddianın qiyməti beş min manatdan az olan əmlak xarakterli iddialar üzrə baxılmış işlərdə qanunvericiliyin tətbiqi təcrübəsinə dair", "Birinci və apellyasiya instansiyası məhkəmələrində baxılmış mülki işlər üzrə kəsici müddətlərlə bağlı qanunvericiliyin tətbiqi təcrübəsinə dair" və "İcra sənədinin geri qaytarılması, icraata xitam verilməsi barədə qərarlardan şikayətlərə baxılması və məhkəmə qətnaməsinin izah edilməsi barədə qanunvericiliyin tətbiqi təcrübəsinə dair" aşağı instansiya məhkəmələrinə müvafiq icmal məktubları göndərilməklə, Mülki kollegiyanın qərarlarında nümayiş etdirilmiş hüquqi mövqeləri əks etdirən ümumiləşdirilmiş izahların məzmunu çatdırılmışdır.

Həmçinin, Mülki kollegiya tərəfindən əmək mübahisələrinə dair işlərin ümumiləşdirilməsi həyata keçirilmiş və işlərə baxılması zamanı aşkar olunan sistem xarakterli problemlərin aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində elektron məhkəmə icraatı və məhkəmə aidiyyəti ilə bağlı məsələlərin təkmilləşdirilməsi məqsədi ilə ayrı-ayrılıqda qanun layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Mülki kollegiyanın sədri və hakimləri tərəfindən Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və digər dövlət qurumlarından daxil olmuş qanun layihələri və digər normativ hüquqi aktlar, həmçinin "Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi"nin 2.1.3-cü yarımbəndinin icrası məqsədi ilə hazırlanmış qanun layihələri ilə bağlı rəy və təkliflər verilmişdir.

Mülki kollegiyanın hakimləri Zaur Əliyev və Vüqar Həsənov Azərbaycan Respublikası Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın tərkibində "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi" işçi qrupunun tərkibində mütəmadi olaraq keçirilmiş iclaslarda iştirak etmiş və müvafiq rəy və təkliflərini işçi qrupun müzakirəsinə təqdim etmişlər.

Mülki məhkəmə icraatı sahəsində məhkəmə qərarlarının sabitliyinin və vahid məhkəmə təcrübəsinin bərqərar olmasının təmin edilməsi məqsədi ilə Mülki Kollegiyanın sədri tərəfindən il ərzində mütəmadi qaydada aşağı instansiyası məhkəmələrinin hakimlərinin iştirakı ilə onlayn videokonfrans formatında görüşlər keçirilmiş, təcrübədə rast gəlinən mübahisəli hüquqi məsələlərə dair suallar ətrafında müzakirələr aparılaraq müvafiq izahlar verilmişdir.

Hesabat dövründə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin icraatında olmuş aşağıdakı 5 məsələ üzrə yazılı mülahizələr verilmişdir:

- Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.4-cü və Əmək Məcəlləsinin 175-ci maddəsinin 4-cü hissəsinə, Vergi Məcəlləsinin 2.4-1-ci və 102.1.4-cü maddələrinə münasibətdə şərh edilməsinə dair;
- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193 və 1194-cü maddələrinin həmin Məcəllənin 372, 373, 1166, 1202.2 və 1255-ci maddələri, habelə Azərbaycan

Respublikası Konstitusiyasının 29-cu maddəsinin birinci və yeddinci bəndlərinin tələbləri baxımından əlaqəli şəkildə şərh edilməsinə dair;

- "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 43.1.3-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinə uyğunluğunun yoxlanılmasına dair "AZSIĞORTA" ASC-nin konstitusiya şikayəti ilə əlaqədar;

- "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 10-1.3-cü maddəsinin tələblərinin, hüquqlarını (vəkilsiz) özləri qoruyan elektron kabineti olmayan adi vətəndaşlara tətbiq edilməməsi" barədə vətəndaş B.N.Namazovun konstitusiya şikayəti ilə əlaqədar;

- Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-3.3-cü hissəsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49, 91, 91-2.1 və 91-2.3-cü maddələri, Azərbaycan Respublikasının Konstitusiyasının 60 və 71-ci maddələri, eləcə də "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsi baxımından şərh edilməsinə dair.

2024-cü il fevralın 19-da Azərbaycan Respublikasının Ali Məhkəməsində Mülki kollegiyanın hakimləri ilə Azərbaycan Notariat Palatası və Ədliyyə Nazirliyinin Notariat idarəsinin rəhbərliyi arasında görüş keçirilmiş, görüşdə ölkəmizin vərəsəlik hüququ ilə bağlı yeni dövrə keçidini şərtləndirmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2023-cü il 26 dekabr tarixli Qərarında əks olunmuş hüquqi mövqelər, habelə notariat və məhkəmə təcrübəsinin dəyişdirilməsi üzrə görüləcək tədbirlər ətrafında müzakirələr aparılmışdır.

Bundan başqa, martın 1-də Azərbaycan Hakimlər İttifaqı və Azərbaycan Notariat Palatası tərəfindən təşkil edilmiş "Vərəsəlik hüququ: müasir çağırışlar" adlı elmi konfransda Mülki kollegiyasının hakimlərinin iştirakı ilə vərəsəliklə bağlı yeni hüquqi mövqelərin vərəsəlik hüquqlarının rəsmiləşdirilməsi sahəsində notariat orqanlarının fəaliyyətinə və məhkəmə təcrübəsinə təsiri ilə bağlı məsələlər ətrafında müzakirələr aparılmış, həmçinin hakim Zaur Əliyevin "Yeni dövrdə miras şərikliyi və mirasın bölüşdürülməsinin aktuallığı" mövzusunda məruzəsi dinlənilmişdir.

Martın 3-dən 9-dək Türkiyə Respublikasının Ali Məhkəməsi (Yargıtay) ilə təcrübə mübadiləsi proqramı çərçivəsində Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının 6 hakimi və apellyasiya instansiyası məhkəmələrinin Mülki kollegiya sədrlərindən ibarət nümayəndə heyəti Türkiyədə səfərdə olmuş, səfər çərçivəsində vərəsəlik, əsassız varlanma, mənəvi ziyanın tutulması, ər-arvadın ümumi əmlakının bölünməsi, habelə mülki hüququn digər sahələri ilə bağlı məhkəmə təcrübəsi ətrafında qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Mülki Kollegiya tərəfindən Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurasının 2024-cü ilin 24 iyun tarixli iclasında "Əsassız varlanma: mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsası kimi" mövzusunda müzakirələr keçirilərək, bu sahədə mövcud olan nəzəri və praktik problemlər və onların həlli yolları nəzərdən keçirilmişdir.

2024-cü ilin sentyabr-oktyabr aylarında Mülki kollegiyanın hakimləri Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə alman mütəxəssislərinin mülki hüquq və mülki proses mövzularında təlimçilər üçün nəzərdə tutulmuş təlimə cəlb edilmişlər.

Hesabat ilində Azərbaycan Hakimlər İttifaqının dəstəyi ilə Mülki kollegiyanın hakimi Zaur Əliyevin müəllifi olduğu "Miras şərikliyi və mirasın bölüşdürülməsi"

adlı elmi-praktik vəsait çap olunaraq, fəaliyyətlərində istifadə edilməsi üçün hakimlər, notariuslar və vəkillərə paylanılmışdır.

Mülki kollegiyanın 5 hakimi (Zaur Əliyev, Abiddin Hüseynov, Elşanə Vəliyeva, Əhməd Əhmədov, Aqil Abbasov) tərəfindən Real TV-də yayımlanan "Femida vaxtı" verilişində vərəsəlik hüququ, ər-arvadın əmlak bölgüsü, alimentin müəyyən hissəsinin uşağın adına açılmış bank hesabına yönəldilməsi qaydası, əmək mübahisələri və uşaqla ünsiyyət mübahisələrinə dair mövzular ətrafında maarifləndirici çıxışlar (ümumilikdə 8 yayım) edilmişdir.

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi ilə Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən layihə üzrə Ailə Məcəlləsinin nikahın bağlanması və nikaha xitam verilməsi ilə bağlı normalarının, xüsusən boşanmaların sayının azaldılması, həmçinin uşaq hüquqları, məişət zorakılığı sahələrində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində ətraflı rəy və təkliflər təqdim edilmişdir.

Mülki Kollegiyanın hakimi Vüqar Həsənov Ədliyyə Akademiyasının Elmi Şurasının tərkibinə daxil olmuş və Elmi Şuranın fəaliyyət istiqaməti ilə bağlı bir neçə müzakirələrdə iştirak etmişdir.

Mülki Kollegiyanın sədri və hakimləri Məhkəmə-Hüquq Şurasının təşəbbüsü ilə Ədliyyə Akademiyası tərəfindən təşkil edilən hakimlərin və hakimliyə namizədlərə müxtəlif mövzularda mühazirələrin tədris edilməsində iştirak etmişdirlər.

2024-cü il 10 oktyabr tarixində Mülki Kollegiyanın sədri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə vəkillər və hakimlər üçün "Məişət zorakılığı ilə mübarizə və məişət zorakılığından zərər çəkmiş şəxslərlə davranış" mövzusunda təlimdə məruzəçi qismində iştirak edərək, məişət zorakılığı ilə bağlı ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti, qüvvədə olan qanunvericilik normalarına dəyişikliklər edilməsi barədə qanun layihələrinə təkliflərin Ali Məhkəmə tərəfindən təqdim edildiyi barədə məlumat vermiş, məişət zorakılığının qarşısının alınması ilə bağlı vətəndaşların müvafiq icra hakimiyyəti orqanlarına çıxışının daha da sadələşdirilməsi barədə fikirlərini qeyd etmişdir.

Hesabat ilində Mülki kollegiyanın sədri tərəfindən 265 vətəndaşın qəbulu (23 qəbul) həyata keçirilmişdir.

## 1.1. Hesabat dövründə ölkə üzrə məhkəmələrdə yekunlaşdırılmış mülki işlər barədə məlumat

Hesabat dövründə ölkə üzrə mülki icraat qaydasında 210.518 iş yekunlaşdırılmışdır ki, həmin iş yükünün məhkəmə instansiyaları üzrə bölgüsü aşağıdakı diaqramlarda əks etdirilmişdir:




***Ölkə üzrə yekunlaşdırılmış mülki işlərin son 5 il üzrə dinamikası:***




***Ötən ilin müvafiq göstəriciləri ilə müqayisə***

| Birinci instansiya məhkəmələri | Apellyasiya instansiyası məhkəmələri | Ali Məhkəmə |
|---|---|---|
| +2,93% | -7% | -11,72% |

Ali Məhkəmə üzrə iş yükünə mülki işlər, məhkəmə aidiyyəti ilə bağlı mübahisələr, təqdimat, məhkəmə tərkibinə etiraz və xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası barədə işlər daxildir, kollegiyaya daxil olmuş digər müraciətlər bu statistikaya daxil edilməmişdir.

## 1.2. Mülki məhkəmə icraatı nəticəsində qəbul edilmiş məhkəmə aktlarının sabitliyi üzrə kəmiyyət göstəriciləri

Hesabat dövründə rayon (şəhər) məhkəmələrində çıxarılmış aktların sabitliyi üzrə kəmiyyət göstəriciləri aşağıdakı kimi olmuşdur:

| | Birinci instansiya məhkəmələrində yekunlaşdırılmış işlərin sayı | Apellyasiya qaydasında yekunlaşdırılmış işlərin sayı | Faiz göstəricisi | Apellyasiya instansiya məhkəməsi tərəfindən ləğv edilmiş qərarların sayı | Qərarların ləğv faizi | Qərarların sabitlik faizi |
|---|---|---|---|---|---|---|
| 2023 | 187222 | 14394 | 7,68% | 3772 | 2,01% | 97,99% |
| 2024 | 192709 | 13457 | 7% | 3942 | 2% | 98% |

Hesabat dövründə apellyasiya instansiya məhkəmələrinin aktlarının sabitliyi üzrə kəmiyyət göstəriciləri aşağıdakı kimi olmuşdur[1]:

| | Apellyasiya instansiya məhkəmələrində yekunlaşdırılmış işlərin sayı | Kassasiya qaydasında yekunlaşdırılmış işlərin sayı | Faiz göstəricisi | Kassasiya instansiya məhkəməsi tərəfindən ləğv edilmiş qərarların sayı | Qərarların ləğv faizi | Qərarların sabitlik faizi |
|---|---|---|---|---|---|---|
| 2023 | 14394 | 4624 | 26,9% | 889 | 6,2% | 93,8% |
| 2024 | 13457 | 4029 | 29,9% | 656 | 4,9% | 95,1% |

[1] Kassasiya qaydasında yoxlanılmış qərar sayına xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası ilə bağlı qəbul edilmiş qərarlar daxil edilməmişdir.

## 1.3. Mülki kollegiyanın icraatında olmuş mülki işlər üzrə ümumi statistik məlumatlar

Hesabat dövründə Mülki kollegiyanın icraatında olmuş, o cümlədən qalıq keçmiş, daxil olmuş işlər, həmin işlərdən yekunlaşdırılmış və növbəti hesabat dövrünə qalıq keçmiş işlərlə bağlı statistik məlumatlar aşağıdakı cədvəllərdə əks etdirilmişdir:

| Göstəricilər | 2023-cü il | 2024-cü il | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat | 5248 | 4524 | -13,8% |
| Ötən hesabat dövründən qalıq keçən işlər | 834 (15,8%) | 624 (13,8%) | -25,2% |
| Hesabat dövründə daxil olan işlər | 4414 (84,2%) | 3900 (86,2%) | -11,6% |
| Yekunlaşdırılmış işlər | 4624 (88,2%) | 4029 (89%) | -12,9% |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 624 (11,8%) | 495 (11%) | -20,7% |



## 1.4. İcraatda olmuş işlərin növləri üzrə (indeks və predmet üzrə) təhlili

İl ərzində icraatda olan mülki işlərin icraatların növü üzrə (indeks üzrə) bölgüsü aşağıdakı qaydada olmuşdur:

| İcraatın növü | 2023-cü il (cəmi icraat) | 2024-cü il (cəmi icraat) | Artıb-azalma faizləri | 2024-cü il (yekunlaşdırılmış işlər üzrə faiz göstəriciləri ilə) |
|---|---|---|---|---|
| Mülki işlər | 5248 (100%) | 4524 (100%) | -13,8% | 4029 (89%) |
| Onlardan: qətnamə | 4548 (86,7%) | 3977 (87,9%) | -12,5% | 3494 (87,8%) |
| Onlardan: qərardad | 570 (10,8%) | 423 (9,4%) | -25,8% | 413 (97,6%) |
| Onlardan: aidiyyət mübahisələri | 92 (1,8%) | 94 (2%) | +2,7% | 92 (97,9%) |
| Onlardan: qərarların icrası qaydasında icraat | 6 (0,1%) | 2 (0,05%) | 3 dəfə azalma | 2 (100%) |
| Təqdimat | 32 (0,6%) | 25 (0,57%) | -21,8% | 25 (100%) |
| Məhkəmə tərkibinə etiraz | – | 3 (0,08%) | – | 3 (100%) |

## 1.5. Kassasiya şikayətlərinin mümkünlüyü məsələlərinə dair məlumatlar

Hesabat dövründə yekunlaşdırılmış 3909 iş (ümumilikdə yekunlaşdırılmış iş sayı 4029 işə bərabərdir, bununla belə bu təhlildə yalnız apellyasiya məhkəmələrinin aktlarından verilmiş kassasiya şikayətləri üzrə icraatda olmuş işlər nəzərə alınmış, məhkəmə aidiyyətinə dair mübahisələr (92 iş), məhkəmə tərkibinə etiraz (3 iş) və təqdimatlar (25 iş) ümumi saya daxil edilməmişdir) üzrə kassasiyanın mümkünlüyünün yoxlanılması nəticələri aşağıdakı kimi olmuşdur:



***Kassasiya şikayəti qeyri-mümkün hesab edilmiş və kassasiya baxışından çıxarılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsü (yekunlaşdırılmış işlərə münasibətdə faiz göstəricisi ilə)***




***Qeyri-mümkün hesab edilmiş və kassasiya baxışından çıxarılmış kassasiya şikayətlərinin apellyasiya instansiyası məhkəmələri üzrə faizlə bölgüsü***



### *Kassasiya şikayətlərinin qeyri-mümkün hesab edilməsi və kassasiya baxışından çıxarılması ilə bağlı illər üzrə göstəricilər*




### *Ötən ilin göstəriciləri ilə müqayisəli təhlil*

**İşlərin cəmi**
2023 — 497 iş
2024 — 331 iş

| Aradan qaldırıla bilən pozuntular | Aradan qaldırılması mümkün olmayan pozuntular | Digər şəxsin kassasiya şikayəti ilə əlaqədar apellyasiya məhkəməsinin müraciəti |
|---|---|---|
| 2023: 336 iş (67,6%) | 2023: 112 iş (22,5%) | 2023: 49 iş (9,9%) |
| 2024: 237 iş (71,6%) | 2024: 46 iş (13,9%) | 2024: 48 iş (14,5%) |

### *Kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsi əsasları:*

#### *Aradan qaldırıla bilən pozuntular:*



*Aradan qaldırılması mümkün olmayan pozuntular:*




## 1.6. Mülki işlər üzrə kassasiya baxışının nəticələri barədə ümumi məlumatlar

Hesabat dövründə Mülki kollegiyada baxılmış işlərin nəticələri, o cümlədən kassasiya icraatına xitam verilmiş işlər aşağıdakı kimi olmuşdur:

| Kassasiya baxışının nəticələri | 2023-cü il | 2024-cü il | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Məhkəmə aktının dəyişdirilmədən saxlanılması | 3080 (76,8%) | 2879 (80,7%) | -6,5% (+3,9%) |
| Məhkəmə aktının dəyişdirilməsi | 40 (1%) | 30 (0,9%) | -25% (-0,1%) |
| Məhkəmə aktının ləğv edilməsi | 889 (22,2%) | 656 (18,4%) | -26,2% (-3,8%) |
| Baxılmış işlərin cəmi | 4009 (100%) | 3565 (100%) | -11,1% |
| O cümlədən, kassasiya icraatına xitam verilməsi | 15 (0,4%) | 13 (0,36%) | -13,3% (-0,04%) |

## 1.7. Məhkəmə aidiyyətinə dair mübahisələrlə bağlı məlumatlar

***Aidiyyət işlərinin daxil olduğu birinci instansiya məhkəmələrinin yurisdiksiyasında olduğu apellyasiya məhkəmələri üzrə bölgü***



Həmin işlərdən 92 iş yekunlaşdırılmış, 2 iş isə növbəti hesabat dövrünə qalıq keçmişdir. Aidiyyət mübahisələrinin yekun nəticələrinə dair məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir:

| Aidiyyət işlərinin cəmi | | Qərardadlardan verilmiş şikayətlərin nəticəsi | | | | Məhkəmələr arasında fikir ayrılığının həlli |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | Şikayət təmin edilmiş, qərardad ləğv edilmiş | Şikayət rədd edilmiş, qərardad dəyişdirilmədən saxlanılmış | Şikayət qeyri-mümkün hesab edilmiş | |
| 2023 | 92 | 86 (94,5) | 21 (32,5%) | 44 (67,5%) | 21 | 6 (5,5%) |
| 2024 | 92 | 90 (97,8%) | 18 (20%) | 56 (80%) | 16 | 2 (2,2%) |

***Mülki kollegiyada məhkəmə aidiyyətinə dair baxılmış işlərin son 5 il üzrə müqayisəsi***




## 1.8. İcraatda olmuş digər işlər barədə məlumatlar

***Xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası barədə işlər üzrə statistik təhlil***

| Göstəricilər | 2023-cü il | 2024-cü il | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat | 345 (100%) | 372 (100%) | +7,8% |
| Ötən hesabat dövründən qalıq keçən işlər | 33 (9,5%) | 39 (10,5%) | +18,2% (+1%) |
| Hesabat dövründə daxil olan işlər | 312 (90,5%) | 333 (89,5%) | +6,7% (-1%) |
| Yekunlaşdırılmış işlər | 306 (88,7%) | 323 (86,8%) | +5,5% (-1,1%) |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 39 (11,3%) | 49 (13,2%) | +25% (1,9%) |

*Yekunlaşdırılmış işlərin təhlili:*

| İşin növü | 2023 | 2024 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Xarici məhkəmələrin qətnamələrinin tanınması | 265 (86,6%) | 277 (89,4%) | +4,5% (+2,8%) |
| Xarici məhkəmələrin qətnamələrinin icrası | – | – | – |
| Xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası | 41 (13,4%) | 46 (10,6%) | +12,2% (-2,8%) |

*Xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası barədə işlərin nəticələrinin təhlili*




*Plenum icraatı ilə bağlı ərizə və şikayətlər*

| Müraciətin növü | 2023 | 2024 | Artıb-azalma göstəriciləri |
|---|---|---|---|
| Əlavə kassasiya şikayətləri | 281 | 250 | - 31 iş (-11%) |
| Yeni açılmış hallar üzrə icraatla bağlı ərizələr | 112 | 72 | -40 iş (-35,7%) |
| İşdə iştirak etməyə cəlb edilməyən, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin ərizələri | 24 | 21 | -3 iş (-12,5%) |
| Cəmi | 417 | 343 | -74 iş (17,7%) |

*Dövlət büdcəsi vəsaiti hesabına vəkillə təmin edilmə barədə ərizələrə baxılmasına dair məlumatlar*

| Ərizələrin cəmi | Təmin edilmiş | Rədd edilmiş |
|---|---|---|
| 31 | 24 | 7 |

## 1.9. Daxil omuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar

| Məhkəmələr | Daxil olan işlər | | | Yekunlaşdırılmış işlər | | |
|---|---|---|---|---|---|---|
| | 2023 | 2024 | Artıb-azalma faizi | 2023 | 2024 | Artıb-azalma faizi |
| Bakı Apellyasiya Məhkəməsi | 2330 | 2116 | -9,2% | 2445 | 2148 | -12% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 543 | 560 | +3,1% | 581 | 564 | -2,9% |
| Gəncə Apellyasiya Məhkəməsi | 569 | 463 | -18,6% | 610 | 500 | -18% |
| Şəki Apellyasiya Məhkəməsi | 372 | 281 | -24,5% | 383 | 298 | -22,2% |
| Şirvan Apellyasiya Məhkəməsi | 444 | 330 | -25,7% | 451 | 363 | -19,5% |
| Naxçıvan MR Ali Məhkəməsi | 33 | 34 | +3% | 30 | 36 | +20% |
| Cəmi | 4291 | 3784 | 11,8% | 4500 | 3909 | -13,2% |

### Daxil olan işlər kütləsi




### Həll edilən işlər kütləsi



## 1.10. Baxılmış işlərin kateqoriyaları üzrə təhlili

Kassasiya qaydasında baxılmış cəmi 3565 işdən 3214 iş üzrə apellyasiya məhkəməsinin qətnaməsi, 351 iş üzrə isə apellyasiya məhkəməsinin qərardadı kassasiya baxışının predmeti olmuşdur.

***Kassasiya qaydasında baxılmış qətnamələrinin təhlili***

***I. Apellyasiya instansiyası məhkəmələrinə münasibətdə bölgü:***

| İşin kateqoriyası | Bakı AM | Sumqayıt AM | Gəncə AM | Şəki AM | Şirvan AM | Naxçıvan MR Ali Məhkəməsi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Ailə-nikah münasibətlərindən yaranan mübahisələr | 257 (53,2%) | 68 (14%) | 73 (15,2%) | 32 (6,6%) | 48 (10%) | 5 (1%) | 483 (100%) |
| Əşya hüquq münasibətlərindən, o cümlədən mənzil, torpaq münasibətlərindən yaranan mübahisələr | 303 (44,7%) | 117 (17,3%) | 114 (16,9%) | 64 (9,4%) | 73 (10,8%) | 6 (0,9%) | 677 (100%0 |
| Əmək münasibətlərindən yaranan mübahisələr | 191 (72,9%) | 23 (8,8%) | 12 (4,6%) | 18 (6,9%) | 16 (6,1%) | 2 (0,8%) | 262 (100%) |
| Müqavilə münasibətlərindən yaranan mübahisələr | 503 (58,9%) | 127 (14,9%) | 108 (12,6%) | 49 (5,7%) | 57 (6,7%) | 10 (1,2%) | 854 (100%) |
| Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn öhdəliklər | 172 (61,3%) | 44 (15,6%) | 22 (7,8%) | 19 (6,7%) | 23 (8,2%) | 1 (0,4%) | 281 (100%) |
| Vərəsəlik hüququndan yaranan mübahisələr | 50 (41,6%) | 14 (11,7%) | 29 (24,2%) | 20 (16,6%) | 5 (4,2%) | 2 (1,7%) | 120 (100%) |
| Sığorta fəaliyyətindən irəli gələn mübahisələr | 13 (65%) | 3 (15%) | - | 1 (5%) | 3 (15%) | - | 20 (100%) |
| Şərəf, ləyaqət və işgüzar nüfuzun müdafiəsi ilə bağlı mübahisələr | 11 (32,4%) | 10 (29,3%) | 6 (17,7%) | - | 6 (17,7%) | 1 (2,9%) | 34 (100%) |
| Xüsusi icraat işləri üzrə | 15 (35,7%) | 8 (19%) | 7 (16,7%) | 6 (14,3%) | 6 (14,3%) | - | 42 (100%) |
| Əqli mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 1 (100%) | - | - | - | - | - | 1 (100%) |
| Digər işlər | 280 (63,7%) | 46 (10,5) | 39 (8,8%) | 34 (7,8%) | 39 (8,8%) | 2 (0,4%) | 440 (100%) |
| Cəmi | 1796 (55,9%) | 460 (14,3%) | 410 (12,7%) | 243 (7,6%) | 276 (8,6%) | 29 (0,9%) | 3214 (100%) |

### *II. Kassasiya baxışının nəticələrinə münasibətdə bölgü:*

| İşin kateqoriyası | Cəmi | Ümumi qətnamələrlə faiz nisbəti | Dəyişdirilmədən saxlanılmış | Ləğv edilmiş | Dəyişdirilmiş |
|---|---|---|---|---|---|
| Ailə nikah münasibətlərindən yaranan mübahisələr | 483 (100%) | 15% | 379 (88,6%) | 94 (9,4%) | 10 (2%) |
| Əşya hüquq münasibətlərindən, o cümlədən mənzil, torpaq münasibətlərindən yaranan mübahisələr | 677 (100%) | 21% | 536 (79,2%) | 141 (20,8%) | - |
| Əmək münasibətlərindən yaranan mübahisələr | 262 (100%) | 8,2% | 217 (82,8%) | 43 (16,4%) | 2 (0,8%) |
| Müqavilə münasibətlərindən yaranan mübahisələr | 854 (100%) | 26,5% | 697 (81,7%) | 151 (17,6%) | 6 (0,7%) |
| Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn öhdəliklər | 281 (100%) | 8,8% | 223 (79,4%) | 48 (17,1%) | 10 (3,5%) |
| Vərəsəliyə dair mübahisələr | 120 (100%) | 3,8% | 91 (75,8%) | 29 (24,2%) | - |
| Sığorta fəaliyyətindən irəli gələn mübahisələr | 20 (100%) | 0,06% | 17 (85%) | 3 (15%) | - |
| Şərəf, ləyaqət və işgüzar nüfuzun müdafiəsi ilə bağlı mübahisələr | 34 (100%) | 1,05% | 27 (79,4%) | 6 (17,6%) | 1 (3%) |
| Xüsusi icraat işləri | 42 (100%) | 1,3% | 27 (64,3%) | 15 (35,7%) | - |
| Əqli mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 1 (100%) | - | | 1 (100%) | |
| Digər işlər | 440 (100%) | 13,9% | 364 (82,3%) | 75 (17%) | 1 (0,2%) |
| Cəmi | 3214 | 100% | 2578 (80,3%) | 606 (18,8%) | 30 (0,9%) |

### *Kassasiya qaydasında baxılmış qərardadların təhlili:*

### *I. Apellyasiya instansiyası məhkəmələrinə münasibətdə bölgü*

| Prosessual məsələnin məzmunu | Bakı AM | Sumqayıt AM | Gəncə AM | Şəki AM | Şirvan AM | Naxçıvan MR Ali Məhkəməsi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Apellyasiyanın qeyri-mümkünlüyü | 32 (47,7%) | 4 (6%) | 5 (7,5%) | 11 (16,4%) | 14 (20,9%) | 1 (1,5%) | 67 (100%) |
| Kassasiya şikayətinin geri qaytarılması | 31 (46,9%) | 10 (15,6%) | 11 (17,2%) | 3 (17,2%) | 10 (15,6%) | | 64 (100%) |
| Kassasiya şikayəti verilməsi üçün ötürülmüş müddətin bərpası | 60 (44,2%) | 27 (19,9%) | 14 (10,3%) | 21 (15,5%) | 13 (9,5%) | 1 (0,7%) | 136 (100%) |
| Iş üzrə icraata xitam verilməsi | 38 (53,%) | 13 (18,3%) | 9 (12,8%) | 5 (7%) | 5 (7%) | 1 (1,4%) | 71 (100%) |
| MPM 402.2.5 | 5 (41,7%) | 1 (8,4%) | - | 4 (33,3%) | 2 (16,6%) | | 12 (100%) |
| Cəmi | 166 (47,2%) | 55 (15,7%) | 39 (11,2%) | 44 (12,5%) | 44 (12,5%) | 3 (0,9%) | 351 (100%) |

*II. Kassasiya baxışının nəticələrinə münasibətdə bölgü*

| Prosessual məsələnin məzmunu | Cəmi | Ümumi qərardadlarla faiz nisbəti | Dəyişdirilmədən saxlanılmış | Ləğv edilmiş |
|---|---|---|---|---|
| Apellyasiyanın qeyri-mümkünlüyü | 67 (100%) | 19,1% | 53 (79,1%) | 14 (20,9%) |
| Kassasiya şikayətinin geri qaytarılması | 64 (100%) | 18,3% | 54 (82,8%) | 11 (17,2%) |
| Kassasiya şikayəti verilməsi üçün ötürülmüş müddətin bərpası | 136 (100%) | 38,9% | 124 (91,2%) | 12 (8,8%) |
| Iş üzrə icraata xitam verilməsi | 71 (100%) | 20,3% | 61 (85,9%) | 10 (14,1%) |
| MPM 402.2.5 | 12 (100%) | 3,4% | 9 (75%) | 3 (25%) |
| Cəmi | 351 (100%) | 100% | 301 (85,7%) | 50 (14,3%) |

## 1.11. Kassasiya baxışının nəticələrinin işlərin aid olduğu apellyasiya məhkəmələrinə münasibətdə təhlili

Hesabat dövründə Mülki kollegiyada baxılmış işlərin nəticələri apellyasiya instansiyası məhkəmələrinə münasibətdə aşağıdakı kimi olmuşdur:



## 1.12. Hesabat dövründə Mülki kollegiyada vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları (★★★ statuslu qərarlar)

| № | Qərarın mahiyyəti | Qərarın nömrəsi | Qərarın qəbul edilmə tarixi |
|---|---|---|---|
| 1 | Müqavilə münasibətlərindən yaranan mübahisələr üzrə | 2[102]-46/2024<br>2[102]-12/2024<br>2[102]-52/2024<br>2[102]-57/2024<br>2[102]-603/2024<br>2[102]-1323/2024<br>2[102]-1757/2024<br>2[102]-235/2024<br>2[102]-1687/2024<br>2[102]-3757/2024 | 22.01.2024<br>24.01.2024<br>29.01.2024<br>29.01.2024<br>14.05.2024<br>20.05.2024<br>14.06.2024<br>17.01.2024<br>13.12.2024 |
| 2 | Əmək münasibətlərindən yaranan mübahisələr üzrə | 2[102]-324/2024<br>2[102]-929/2024<br>2[102]-1335/2024 | 16.01.2024<br>23.04.2024<br>21.05.2024 |
| 3 | Mülkiyyət hüququnun müdafiəsi ilə bağlı yaranan mübahisələr üzrə | 2[102]-222/2024<br>2[102]-87/2024<br>2[102]-781/2024 | 16.01.2024<br>19.02.2024<br>29.02.2024 |
| 4 | Mülki hüquqda müddətlərin tətbiqi üzrə | 2[102]-1049/2024<br>2[102]-1921/2024<br>2[102]-3503/2024 | 01.04.2024<br>01.08.2024<br>29.10.2024 |
| 5 | Əşya hüquq münasibətlərindən yaranan mübahisələr üzrə | 2[102]-841/2024 | 18.04.2024 |
| 6 | Vərəsəlik münasibətlərindən yaranan mübahisələr üzrə | 2[102]-900/2024<br>2[102]-1792/2024<br>2[102]-3560/2024 | 22.04.2024<br>10.06.2024<br>26.11.2024 |
| 7 | Prosessual məsələlər üzrə | 2[102]-1481/2024<br>2[102]-1637/2024<br>2[102]-1243/2024<br>2[102]-3821/2024<br>2[102]-4056/2024 | 01.05.2024<br>01.05.2024<br>16.05.2024<br>19.11.2024<br>19.12.2024 |
| Cəmi – 28 | | | |

## 1.13. Mülki və Kommersiya kollegiyaları tərəfindən məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə qəbul edilmiş qərardadlar

| № | Qərarın mahiyyəti | Qərarın nömrəsi | Qərarın qəbul edilmə tarixi |
|---|---|---|---|
| 1 | Məhkəmə qərarı ilə təsdiq edilmiş barışıq sazişinin etibarsızlığı barədə iddianın mümkünlüyünə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə | № 01/2024 | 23.02.2024 |
| 2 | Azərbaycan Respublikası Mülki Məcəlləsinin paylı mülkiyyətlə bağlı bəzi müddəalarının tətbiqi məsələləri üzrə | № 02/2024 | 06.12.2024 |

## 1.14. Hesabat dövründə baxılmış işlər üzrə ödənilmiş dövlət rüsumlarına dair məlumatlar



AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# II BÖLMƏ

# CİNAYƏT KOLLEGİYASI

02

## 2. Ali Məhkəmənin Cinayət kollegiyasının fəaliyyətinə dair ümumi məlumat

Ali Məhkəmənin Cinayət kollegiyası və müvafiq struktur bölmə tərəfindən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin icraatında olmuş aşağıdakı 11 məsələ üzrə yazılı mülahizələr və mütəxəssis rəyi verilmişdir:

- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 32.2, 84.1 və 170-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin IV hissəsi ilə əlaqəli şəkildə şərh olunmasına dair Azərbaycan Respublikası Baş Prokurorluğunun sorğusu üzrə yazılı mülahizə;

- Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 412.7-ci maddəsinin “İcra haqqında” Azərbaycan Respublikası Qanununun 17.1.7-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunun müraciəti üzrə yazılı mülahizə;

- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 17, 66, 294.3-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsi, 63-cü maddəsinin I hissəsi, 64-cü maddəsi, 71-ci maddəsinin VIII hissəsi, “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın 7-ci maddəsinin 1-ci bəndi ilə əlaqəli şəkildə şərh edilməsinə dair Bakı Ağır Cinayətlər Məhkəməsinin müraciəti üzrə yazılı mülahizə;

- Şirvan Apellyasiya Məhkəməsinin “Azərbaycan Respublikası Konstitusiyasının 60 və 71-ci maddələrinin tələbləri baxımından Azərbaycan Respublikası Cinayət-Prossesual Məcəlləsinin 442, 443, 444, 445, 447 və 449-cu maddələrinin şərh edilməsinə dair” müraciəti üzrə mütəxəssis rəyi;

- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsində nəzərdə tutulmuş “mənzil” müddəasının Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 7.0.34-cü və 17-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunun sorğusu üzrə yazılı mülahizə;

- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-cü maddəsinin “Qeyd” hissəsinin birinci bəndinin “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunun sorğusu üzrə yazılı mülahizə;

- Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsinin və “Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları”nın 4.3.2-1-ci yarımbəndinin Azərbaycan Respublikası Konstitusiyasının 59 və 79-cu maddələri ilə əlaqəli şəkildə, hüquqi müəyyənlik prinsipinin tələbləri baxımından şərh edilməsi barədə Azərbaycan Respublikası Şəki Rayon Məhkəməsinin müraciəti üzə yazılı mülahizə;

- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 325 və 326.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə (“Azərbaycan Respublikasının dövlət təltifini qanunsuz yolla əldə etmə” müddəasının Azərbaycan Respublikasının dövlət təltifinin talanması əməlini ehtiva edib etməməsini müəyyən etmək üçün) dair Azərbaycan Respublikası Baş Prokurorluğunun sorğusu üzrə yazılı mülahizə;

- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsində icra qeydinin nəzərdə tutulmaması səbəbindən həmin normanın Azərbaycan Respublikası Konstitusiyasının 60, 63, 71 və 127-ci maddələrinə, habelə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsinə, həmin Konvensiyaya dair 20 mart 1952-ci il tarixli Protokolun 1-ci maddəsinə, "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 70-ci və 82-ci maddələrinə uyğun olmayan hesab edilməsi barədə Səlimov Ramazan Baba Əli oğlunun müraciəti üzrə yazılı mülahizə;

- Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 499.1 və 499.2-ci maddələrinin əlaqəli şəkildə, eləcə də həmin Məcəllənin 499.1.5-ci maddəsində nəzərdə tutulmuş "bir ildən artıq müddətə gecikdirilməklə" müddəasının İnzibati Xətalar Məcəlləsinin 38-ci maddəsinə uyğunluğu baxımından şərh edilməsinə dair Şirvan Apellyasiya Məhkəməsinin müraciəti üzrə yazılı mülahizə;

- Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 442-ci maddəsinin həmin Məcəllənin 216.2 və 215.7-ci maddələri baxımından şərh edilməsinə dair Səbail Rayon Məhkəməsinin müraciəti üzrə yazılı mülahizə.

Cinayət kollegiyasının hakimi Nazim Mövsümovun məsul olduğu "2023-cü ilin birinci yarımilliyində respublikanın apellyasiya, rayon (şəhər), ağır cinayətlər və hərbi məhkəmələrində baxılmış cinayət işlərində cəza təyini zamanı CM-nin 62-ci (cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi) və 70-ci (şərti məhkum etmə) maddələri ilə bağlı qanunvericiliyin tətbiqi təcrübəsi" mövzusu üzrə;

Cinayət kollegiyasının hakimi Rəşad Abdulovun məsul olduğu "2022-2023-cü illərdə baxılmış işlər üzrə məhkəmənin hazırlıq iclasında Azərbaycan Respublikası CPM-nin 303.3-cü maddəsində göstərilən əsaslarla cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması zamanı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinin ümumiləşdirilməsi" mövzusu üzrə;

Cinayət kollegiyasının hakimi Teyyub Muxtarovun məsul olduğu "2023-cü ilin ikinci yarımilliyində cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın qalan hissəsini çəkmək üçün məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirmə və cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi məsələləri üzrə hökmün icrası qaydasında verilmiş müraciətlərə məhkəmələr tərəfindən baxılması təcrübəsinin ümumiləşdirilməsi" mövzusu üzrə məhkəmə təcrübəsinin təhlili şöbəsi tərəfindən ümumiləşdirmə aparılmışdır.

Cinayət kollegiyasının hakimləri 2024-cü ildə Ali Məhkəmənin qanunvericiliyin təkmilləşdirilməsi üzrə fəaliyyətində iştirak etmişlər.

Belə ki, 2024-cü ildə Azərbaycan Respublikasının Baş Prokurorluğundan, Vəkillər Kollegiyasından, Azərbaycan Respublikası Ədliyyə Nazirliyindən və digər dövlət orqanlarından göndərilmiş qanunvericilik aktlarına dəyişikliklərin edilməsi haqqında aşağıdakı layihələr, təkliflər və sorğular üzrə Cinayət kollegiyasında müzakirələr aparılaraq, Ali Məhkəmənin müvafiq struktur bölmələri ilə birgə rəylər və təkliflər hazırlanmışdır:

Azərbaycan Respublikasının Nazirlər Kabinetindən daxil olmuş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı”-nın layihəsi;

Azərbaycan Respublikasının Baş Prokurorluğundan daxil olmuş “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” və “Xidməti və mülki silah haqqında Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə”, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” və “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanun layihələri, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə”, “Elektron məhkəməyədək icraat” informasiya sisteminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı layihələri;

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən göndərilmiş “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” və “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Azərbaycan Respublikasının İnzibati Xətalar, Cinayət, Cinayət-Prosessual məcəllələrində dəyişiklik edilməsi haqqında”, “Üzərinə həbs qoyulmuş əmlakın yaxşılaşdırılması, satılması, icarəyə və ya idarəetməyə verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsi; “Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi barədə”, “Azərbaycan Respublikası Cinayət Məcəlləsində və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” qanun layihələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” ölkə Prezidentinin 2024-cü il 15 avqust tarixli 178 nömrəli Fərmanına uyğunlaşdırılmasına dair təkliflər, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanun layihəsi, Azərbaycan Respublikası Prezidentinin “ASAN ödəniş” sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2015-ci il 11 fevral tarixli 463 nömrəli və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə 2022-ci il 22 sentyabr tarixli 1845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərman layihəsi; “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyi-

şiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 mart tarixli 138s nömrəli sərəncamının 1.1.1.2-ci yarımbəndinin icrasının təmin edilməsi məqsədilə hazırlanmış qanun və fərman layihələri; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 fevral tarixli 101s nömrəli sərəncamının 1.2-ci bəndinin icrasının təmin edilməsi məqsədilə hazırlanmış qanun və fərman layihələri;

O cümlədən, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən göndərilmiş 1 qanun layihəsi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən göndərilmiş 1 qanun layihəsi, Dövlət Təhlükəsizlik Xidməti tərəfindən göndərilmiş 4 qanun layihəsi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən göndərilmiş 1 qanun layihəsi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən göndərilmiş 2 qanun layihəsi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən göndərilmiş 1 qanun layihəsi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən göndərilmiş 2 qanun layihəsi, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən göndərilmiş 1 qanun layihəsi, Hüquqi ekspertiza və Qanunvericilik Təşəbbüs Mərkəzi Publik Hüquqi Şəxsi tərəfindən göndərilmiş 1 qanun layihəsi.

Cinayət kollegiyasının hakimləri 2024-cü ildə təşkil olunmuş müxtəlif konfranslarda, görüşlərdə, təlim üzrə tədbirlərdə, Ali Məhkəmənin, ümumiyyətlə məhkəmələrin, hakimlərin fəaliyyətinə aid digər məsələlərin həyata keçirilməsində iştirak etmişlər:

- Cinayət kollegiyasının sədri Hafiz Nəsibovun sədrliyi ilə birinci instansiya və apellyasiya instansiyası məhkəmələrinin hakimləri ilə online iclaslar keçirilmiş;
- Hakim Tahir Kazımov 2024-cü ilin 18 aprel tarixində Azərbaycan Hakimlər İttifaqının və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının birgə təşəbbüsü ilə bir qrup hakimin kursantlar və müəllim heyəti ilə görüşdə, Azərbaycan Respublikası Hakimlər İttifaqının xətti ilə - 2024-cü ilin 6 sentyabr tarixində Bakıda Azərbaycan Hakimlər İttifaqı və Azərbaycan Respublikası Ali Məhkəməsinin birgə təşkilatçılığı ilə "Law and climate" adlı beynəlxalq konfransında, 1 noyabr tarixində Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Zəfər Günü - milli qürur və şərəf tariximiz" mövzusunda Respublika elmi - praktik konfransında, Cənubi Afrika Respublikasının Keyp Taun şəhərində Beynəlxalq Hakimlər Assosiasiyasının 66-cı İllik Toplantısında, Gəncə şəhərində keçirilmiş Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan məhkəmə hakimlərinin iştirakı ilə seminarda, Şirvan şəhərində keçirilmiş Şirvan Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan məhkəmə hakimlərinin iştirakı ilə keçirilmiş seminarda iştirak etmiş;
- Hakim Tahir Kazımov həmçinin, 2024-cü ilin 26 iyul tarixində Daxili İşlər Nazirliyinin Polis Akademiyası ilə Azərbaycan Hakimlər İttifaqı arasında birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmasında, Azərbaycan Respublikası Baş Prokurorluğu yanında Elmi-Məsləhət Şurası tərəfindən keçirilmiş tədbirlərdə (o cümlədən, Xankəndi şəhərində keçirilmiş Elmi-Praktiki konfransda) iştirak etmiş;

- Hakim İlkin Rəcəbov 2024-cü ilin 3 iyun tarixində “FATF” Təşkilatının “Benefisiar sahiblik” mövzusunda onlayn kursda iştirak etmiş, üzvü olduğu Avropa Hakimlərinin Məşvərətçi Komitəsinin (CCJE) “Hakimlərin inzibati məsuliyyəti” başlıqlı 27 saylı Rəyinin hazırlanaraq 05.12.2024-cü il tarixdə qəbul edilməsi üçün tələb edilən Azərbaycan Respublikasına aid hissədə hesabatını və eyni təşkilat tərəfindən qəbul edilmiş “Məhkəmə Sistemində Müxtəliflik və İnklüzivlik” başlıqlı Tematik Tədqiqatın tərtibi üçün tələb edilən Azərbaycan Respublikasına aid hissədə hesabatını hazırlamış;

- Hakim Teyyub Muxtarov 2024-cü ilin 26 aprel, 24 may, 2 avqust, 30 sentyabr və 21 oktyabr tarixlərində Ədliyyə Akademiyasında hakimliyə namizədlər üçün təlimlər keçirilməsində iştirak etmiş, 2024-cü ilin 26 sentyabr tarixində “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması ilə bağlı” mövzuda beynəlxalq konfransda iştirak etmiş;

- 2024-cü il 25 oktyabr tarixində Azərbaycan Respublikası Ali Məhkəməsinin yanında Elmi-məsləhət şurasının növbəti iclası keçirilmiş, Cinayət kollegiyasının hakimlərinin iştirakı ilə keçirilən iclasda Cinayət Məcəlləsinin 312-1-ci maddəsində nəzərdə tutulmuş “Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)” cinayətinin cinayət-hüquqi xarakteristikası, bu, habelə rüşvət alma və rüşvət vermə cinayətlərinin bir-birindən, eləcə də dələduzluq və s. oxşar cinayətlərdən fərqləndirilməsi” mövzusu müzakirə edilmiş;

- Hakim Ələsgər Novruzov Vəkillər kollegiyasının seçki komissiyasının il ərzində keçirilmiş iclaslarında iştirak etmiş;

- Cinayət Kollegiyasının hakimləri tərəfindən televiziya yayımı vasitəsi ilə məhkəmələrdə cinayət işlərinə baxılmasının xüsusiyyətləri, məhkəmə sistemində müasir çağırışlar, məhkəməyə müraciət və şikayət verilməsi qaydaları, müəyyən kateqoriya cinayət işlərinin xüsusiyyətləri və digər mövzularda maarifləndirici çıxışlar edilmişdir.

2024-cü il ərzində Cinayət kollegiyanın sədri tərəfindən 242 nəfər vətəndaşın qəbulu həyata keçirilmişdir.

## 2.1. Hesabat dövründə cinayət mühakimə icraatında baxılmış işlərə dair statistik məlumat

Hesabat dövründə ölkə üzrə cinayət mühakimə icraatında 39544 işə baxılmışdır ki, həmin iş yükünün (cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları, hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri və hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları) məhkəmə instansiyaları üzrə bölgüsü aşağıdakı diaqramlarda əks etdirilmişdir:




Birinci instansiya məhkəmələri (76,2%)

Apellyasiya instansiyası məhkəmələri (17,2%)

Ali Məhkəmə (6,6%)

**Cəmi: 39544 iş**

*Cinayət mühakimə icraatında baxılan işlərin 5 il üzrə dinamikası:*




*Ötən ilin müvafiq göstəriciləri ilə müqayisə*

| Birinci instansiya məhkəmələri üzrə | Apellyasiya instansiyası məhkəmələri üzrə | Ali Məhkəmə üzrə |
|---|---|---|
| -5% | +23,8% | +14,9% |

## 2.2. Cinayət mühakimə icraatı nəticəsində qəbul edilmiş məhkəmə aktlarının sabitliyi üzrə kəmiyyət göstəriciləri

Hesabat dövründə birinci instansiya məhkəmələrində çıxarılmış aktların (cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materialları, hərbi məhkəmələrin yurisdiksiyasına aid cinayət işləri və hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat materialları) sabitliyi üzrə kəmiyyət göstəriciləri aşağıdakı kimi olmuşdur:

| | Birinci instansiya məhkəmələrində baxılmış işlərin sayı | Apellyasiya qaydasında baxılmış işlərin sayı | Faiz göstəricisi | Apellyasiya instansiyası məhkəməsi tərəfindən ləğv edilmiş aktların sayı | Qərarların ləğv edilməsi faizi | Məhkəmə aktlarının sabitlik faizi |
|---|---|---|---|---|---|---|
| 2023 | 31745 | 5489 | 17,3% | 451 | 1,4% | 98,6% |
| 2024 | 30136 | 6797 | 22,6% | 390 | 1,3% | 98,7% |

Hesabat dövründə apellyasiya instansiya məhkəmələrinin aktlarının sabitliyi üzrə kəmiyyət göstəriciləri aşağıdakı kimi olmuşdur:

| | Apellyasiya qaydasında baxılmış işlərin sayı | Kassasiya qaydasında baxılmış işlərin sayı | Faiz göstəricisi | Kassasiya instansiya məhkəməsi tərəfindən ləğv edilmiş aktların sayı | Qərarların ləğv edilməsi faizi | Məhkəmə aktlarının sabitlik faizi |
|---|---|---|---|---|---|---|
| 2023 | 5489 | 2272 | 41,4% | 209 | 3,8% | 96,2% |
| 2024 | 6797 | 2611 | 38,4% | 180 | 2,6% | 97,4% |

## 2.3. İcraatda olmuş işlərə dair ümumi statistik məlumatlar

Hesabat dövründə Cinayət kollegiyasının icraatında olmuş işlər, o cümlədən ötən ildən qalıq keçmiş işlər, il ərzində daxil olmuş işlər, həmin işlərdən yekunlaşdırılmış və növbəti ilə qalıq keçmiş işlərlə bağlı statistik məlumatlar aşağıdakı diaqramlarda əks etdirilmişdir:

***İşlərə görə:***

| Göstəricilər | 2023-cü il | 2024-cü il | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat | 3391 | 3688 | +8,8% |
| Ötən hesabat dövründən qalıq keçən işlər | 850 | 920 | +8,2% |
| Hesabat dövründə daxil olan işlər | 2541 | 2768 | +8,9% |
| Baxılmış işlər | 2272 | 2611 | +14,9% |
| Baxışdan çıxarılan işlər | 199 | 188 | -5,5% |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 920 | 889 | -3,4% |

***Göstərilən meyarlar üzrə 5 illik dinamika*[1]*:***




## *Şəxslərə görə:*

| Göstəricilər | 2023-cü il | 2024-cü il | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat | 3975 | 3988 | +0,3% |
| Ötən hesabat dövründən qalıq keçən işlər | 1005 | 1017 | +1,2% |
| Hesabat dövründə daxil olan işlər | 2970 | 2971 | +0,05% |
| Baxılmış işlər | 2643 | 2855 | +8% |
| Baxışdan çıxarılan işlər | 315 | 213 | -32,4% |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 1017 | 920 | -9,5% |

[1] Bu diaqramda əks olunmuş yekunlaşma göstəricisi baxılmış və baxışdan çıxarılmış işlərin cəminə bərabərdir.

***Göstərilən meyarlar üzrə 5 illik dinamika[1]:***




## 2.4. İcraatda olmuş işlər üzrə icraatın növlərinə (indekslər) dair məlumat

***İşlər üzrə:***

| İcraatın növü | 2023 | 2024 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cinayət işləri (1 və 1-1 indeksləri üzrə) | 3233 (95,3%) | 3427 (92,95%) | +6% |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri üzrə) | 156 (4,55%) | 259 (7%) | +66% |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 indeksi üzrə) | 2 (0,05%) | 2 (0,05%) | – |
| Cəmi | 3391 (100%) | 3688 (100%) | +8,8% |

***Şəxslər üzrə:***

| İcraatın növü | 2023 | 2024 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cinayət işləri (1 və 1-1 indeksləri üzrə) | 3817 (96%) | 3727 (93,45%) | -2,4% |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri üzrə) | 156 (3,95%) | 259 (6,5%) | +66% |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 indeksi üzrə) | 2 (0,05%) | 2 (0,05%) | – |
| Cəmi | 3975 (100%) | 3988 (100%) | +0,3% |

[1] Bu diaqramda əks olunmuş yekunlaşma göstəricisi baxılmış və baxışdan çıxarılmış işlərin cəminə bərabərdir.

## 2.5. Baxılmış müraciətlərin növlərinə dair məlumat

Hesabat dövründə Cinayət Kollegiyasında baxılan işlər üzrə müraciətlərin növü aşağıdakı kimi olmuşdur:

| İcraatın növü | Kassasiya protesti əsasında | | Kassasiya şikayəti əsasında | | Təqdimat əsasında | | Cəmi baxılıb | |
|---|---|---|---|---|---|---|---|---|
| | iş | şəxs | iş | şəxs | iş | şəxs | iş | şəxs |
| Cinayət işləri (1 və 1-1 indeksləri üzrə) | 526 21,7% | 617 23,2% | 1894 88,3% | 2047 76,8% | | | 2420 100% | 2664 100% |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri üzrə) | 26 13,7% | 26 86,3% | 163 13,7% | 163 86,3% | | | 189 100% | 189 100% |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 indeksi üzrə) | – | – | 2 100% | 2 100% | | | 2 100% | 2 100% |
| Cəmi | 552 21,1% | 643 22,5% | 2059 78,9% | 2212 77,5% | | | 2611 100% | 2855 100% |

***İşlər üzrə:***



*Şəxslər üzrə:*




## 2.6. Baxışdan çıxarılmış, o cümlədən geri götürülmüş müraciətlərə dair məlumatlar

Hesabat dövründə Cinayət kollegiyasında baxılmadan yekunlaşdırılan işlərə dair məlumatlar aşağıdakı cədvəldə əks etdirilmişdir:

| İcraatın növü | CPM-in 418.3-cü maddəsinə əsasən geri qaytarılmış | | Kassasiya müraciəti geri götürülmüş | |
|---|---|---|---|---|
| | iş | şəxs | iş | şəxs |
| Cinayət işləri (1 və 1-1 indeksləri üzrə) | 45 | 51 | 132 | 151 |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri üzrə) | 2 | 2 | 9 | 9 |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 indeksi üzrə) | - | - | - | - |
| Cəmi | 47 | 53 | 141 | 160 |

***Kassasiya şikayətini və ya protestini ilkin öyrənən hakim tərəfindən işin apellyasiya məhkəməsinə geri qaytarılması əsasları***




***Mümkünlüyü yoxlanılmadan göndərilmiş kassasiya müraciətlərinin apellyasiya instansiyası məhkəmələri üzrə bölgüsü***



Kassasiya müraciəti (cəmi 141 iş üzrə) geri götürülmüşdür:




## 2.7. Məhkəmə aidiyyətinin müəyyən edilməsinə dair müraciətlərlə bağlı məlumatlar

Hesabat dövründə Cinayət kollegiyasına müxtəlif apellyasiya instansiyası məhkəmələrinin yurisdiksiyasında fəaliyyət göstərən məhkəmələr arasında yaranmış fikir ayrılığının həll edilməsi ilə əlaqədar apellyasiya məhkəmələrinin sədrləri tərəfindən 9 müraciət daxil olmuşdur.

***Müraciətlərin apellyasiya məhkəmələri üzrə bölgüsü:***




| Ərazi üzrə məhkəmə aidiyyətinin müəyyən edilməsi ilə bağlı müraciətlər | | | Predmet üzrə məhkəmə aidiyyətinin müəyyən edilməsi ilə bağlı müraciətlər |
|---|---|---|---|
| ümumi məhkəmələr | ağır cinayətlər məhkəmələri | hərbi məhkəmələr | |
| 6 | 3 | – | – |

***Məhkəmələr arasında aidiyyətlə bağlı fikir ayrılığına səbəb olmuş əsaslar:***




## 2.8. Kassasiya müraciətlərinə baxılması nəticələrinə dair ümumi məlumatlar

Hesabat dövründə Cinayət kollegiyasında mahiyyəti üzrə baxılmış müraciətlərin nəticələri aşağıdakı kimi olmuşdur:

***İşlərə görə:***

| İcraatın növü | Kassasiya protesti | | | Kassasiya şikayəti | | | Təqdimat | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) | Cəmi | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) | | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) |
| Cinayət işləri (1 və 1-1 indeksləri üzrə) | 526 100% | 412 78,3% | 114 21,7% | 1894 100% | 1611 85,5% | 283 14,% | – | 2023 83,6% | 397 16,4% |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri üzrə) | 26 100% | 23 88,4% | 3 11,6% | 163 100% | 151 92,6% | 12 7,4% | – | 174 92% | 15 8% |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 indeksi üzrə) | – | – | – | 2 100% | 1 50% | 1 50% | – | 1 50% | 1 50% |
| Cəmi | 552 100% | 435 78,8% | 117 21,2% | 2059 100% | 1763 85,6% | 296 14,4% | – | 2198 84,2% | 413 15,8% |

***Şəxslərə görə:***

| İcraatın növü | Kassasiya protesti | | | Kassasiya şikayəti | | | Təqdimat | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) | Cəmi | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) | | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) |
| Cinayət işləri (1 və 1-1 indeksləri üzrə) | 618 100 % | 485 78% | 133 22% | 2046 100% | 1719 84% | 327 16% | – | 2204 83% | 460 17% |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri üzrə) | 26 100% | 23 88% | 3 12% | 163 100% | 151 93% | 12 7% | – | 174 92% | 15 8% |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 indeksi üzrə) | – | – | – | 2 100% | 1 50% | 1 50% | – | 1 50% | 1 50% |
| Cəmi | 644 100% | 508 79% | 136 21% | 2211 | 1871 | 340 | – | 2379 100% | 476 100% |

## 2.9. Kassasiya qaydasında baxılmış cinayət işlərinin kateqoriyalar üzrə təhlili

Cinayət kollegiyasında 2024-cü ildə baxılmış cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materiallarına, habelə hərbi məhkəmələrin yurisdiksiyasına aid işlərə dair məlumatlar həmin işləri məhkumların təqsirli bilindikləri cinayətlərin Cinayət Məcəlləsinin hansı fəsilində yerləşməsinə, yəni qəsd edilən obyektə görə qruplaşdırdıqda, aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur.

***Şəxsiyyət əleyhinə olan cinayətlər***

| Cinayətin növləri | Azərbaycan Respublikası CM-nin fəsilləri üzrə maddələr | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır | Hökm və ya qərar ləğv edilmiş | | Cəmi ləğv edilmiş | Dəyişdirilmiş | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | | | Təkrar apellyasiya baxışına göndərilmiş | İcraatına xitam verilmiş | | | |
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | Mad. 120-143 | 186/194 | 12/12 | 1/1 | 13/13 | 24/28 | 223/235 |
| Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | Mad. 144-148 | 72/88 | 5/5 | - | 5/5 | 6/16 | 83/109 |
| Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər | Mad. 149-153 | 30/30 | 2/2 | - | 2/2 | 1/1 | 33/33 |
| İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər | Mad. 154-169 | 1/1 | 2/4 | - | 2/4 | - | 3/5 |
| Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər | Mad. 170-176 | 3/4 | 2/3 | - | 2/3 | -- | 5/7 |
| Cəmi | | 292/317 | 23/26 | 1/1 | 24/27 | 31/45 | 347/389 |

## *İqtisadi sahədə cinayətlər*

| Cinayətin növləri | Azərbaycan Respublikası CM-nin fəsilləri üzrə maddələr | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmış | Hökm və ya qərar ləğv edilmiş | | Cəmi ləğv edilmiş | Hökm və ya qərar dəyişdirilmiş | Yekun sayı |
|---|---|---|---|---|---|---|---|
| | | | Təkrar apellyasiya baxışına göndərilmiş | İcraatına xitam verilmiş | | | |
| Mülkiyyət əleyhinə olan cinayətlər | Mad. 177-189 | 425/463 | 36/40 | 1/1 | 37/41 | 55/68 | 517/572 |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | Mad. 190-213 | 65/85 | 8/10 | - | 8/10 | 3/5 | 76/100 |
| Cəmi | | 490/548 | 44/50 | 1/1 | 45/51 | 58/73 | 593/672 |

## *İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər*

| Cinayətin növləri | Azərbaycan Respublikası CM-nin fəsilləri üzrə maddələr | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmış | Hökm və ya qərar ləğv edilmiş | | Cəmi ləğv edilmiş | Cəmi dəyişdirilmiş | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | | | Təkrar apellyasiya baxışına göndərilmiş | İcraatına xitam verilmiş | | | |
| İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər | Mad. 214-233 | 63/71 | 13/18 | 1/1 | 14/19 | 10/12 | 87/102 |
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər | Mad. 234-241 | 963/1027 | 49/50 | - | 49/50 | 96/99 | 1108/1176 |
| İctimai mənəviyyat əleyhinə cinayətlər | Mad. 242-246 | 5/6 | - | - | | 1/1 | 6/7 |
| Ekoloji cinayətlər | Mad. 247-261 | 9/9 | 3/4 | - | 3/4 | - | 12/13 |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | Mad. 262-270 | 99/100 | 13/13 | - | 13/13 | 12/12 | 124/125 |
| Kompüter informasiyası sahəsində cinayətlər | Mad. 271-273 | 1/1 | - | - | - | - | 1/1 |
| Cəmi | - | 1140/1214 | 78/85 | 1/1 | 79/86 | 119/124 | 1338/1424 |

### *Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər*

| Cinayətin növləri | Azərbaycan Respublikası CM-nin fəsilləri üzrə maddələr | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır (şəxslərin sayı) | Hökm və ya qərar ləğv edilmişdir | | Cəmi ləğv edilmiş | Hökm və ya qərar dəyişdirilmiş | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | | | təkrar apellyasiya baxışına göndərilmiş | İcraatına xitam verilmiş | | | |
| Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər | Mad. 274-285 | 2/4 | - | - | - | - | 2/4 |
| Ədalət mühakiməsi əleyhinə olan cinayətlər | Mad. 286-307 | 22/22 | 1/1 | | 1/1 | - | 23/23 |
| Dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlər | Mad. 308-314 | 39/58 | 8/10 | - | 8/10 | 21/32 | 68/100 |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | Mad. 315-326 | 18/21 | 5/5 | - | 5/5 | 1/1 | 24/27 |
| Cəmi | | 81/105 | 14/16 | - | 14/16 | 22/33 | 117/154 |

### *Hərbi xidmət əleyhinə olan cinayətlər*

| Cinayətin növləri | Azərbaycan Respublikası CM-nin fəsilləri üzrə maddələr | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmış | Hökm və ya qərar ləğv edilmiş | | Cəmi ləğv edilmiş | Hökm və ya qərar dəyişdirilmiş | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | | | Təkrar apellyasiya baxışına göndərilmiş | İcraatına xitam verilmiş | | | |
| Hərbi xidmət əleyhinə olan cinayətlər | Mad. 327-353 | 20/20 | 5/5 | - | 5/5 | - | 25/25 |
| Cəmi | - | 20/20 | 5/5 | - | 5/5 | - | 25/25 |

## 2.10. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar

| Məhkəmələr | Daxil olan işlər | | | Yekunlaşdırılmış işlər | | |
|---|---|---|---|---|---|---|
| | 2023 | 2024 | Artıb-azalma faizi | 2023 | 2024 | Artıb azalma faizi |
| Bakı Apellyasiya Məhkəməsi | 1341 | 1360 | +1,4% | 1239 | 1421 | +14,7% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 256 | 372 | +45,3% | 258 | 333 | +29,1% |
| Gəncə Apellyasiya Məhkəməsi | 261 | 372 | +11,1% | 264 | 256 | -3% |
| Şəki Apellyasiya Məhkəməsi | 187 | 276 | +47,6% | 206 | 265 | +28,6% |
| Şirvan Apellyasiya Məhkəməsi | 476 | 507 | +6,5% | 490 | 498 | +1,6% |
| Naxçıvan MR Ali Məhkəməsi | 20 | 21 | 5% | 14 | 26 | +85,7% |
| Cəmi | 2541 | 2768 | +8,9% | 2471 | 2799 | -13,2% |

### Daxil olan işlər kütləsi




### Həll edilən işlər kütləsi



## 2.11. Baxılmış işlərin kateqoriyalara və apellyasiya məhkəmələrinə münasibətdə bölgüsünə dair məlumatlar

| İşlərin növləri | Bakı Apellyasiya Məhkəməsi | Gəncə Apellyasiya Məhkəməsi | Sumqayıt Apellyasiya Məhkəməsi | Şəki Apellyasiya Məhkəməsi | Şirvan Apellyasiya Məhkəməsi | Naxçıvan MR Ali Məhkəməsi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | 104 | 34 | 34 | 17 | 34 | | 223 |
| Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | 49 | 7 | 7 | 7 | 13 | | 83 |
| Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər | 11 | 6 | 3 | 4 | 8 | 1 | 33 |
| İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər | 1 | 1 | | | 1 | | 3 |
| Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər – Yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə | 2 | 1 | 1 | 1 | | | 5 |
| Kibercinayətlər | | | 1 | | | | 1 |
| Mülkiyyət əleyhinə olan cinayətlər | 298 | 51 | 62 | 47 | 54 | 5 | 517 |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | 32 | 5 | 9 | 3 | 24 | 3 | 76 |
| İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər | 30 | 17 | 11 | 13 | 15 | 1 | 87 |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | 6 | | 3 | 5 | 10 | | 24 |
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər | 568 | 79 | 139 | 80 | 236 | 6 | 1108 |
| İctimai mənəviyyat əleyhinə cinayətlər | 2 | 1 | 1 | | 2 | | 6 |
| Ekoloji cinayətlər | 1 | 1 | 4 | 4 | 2 | | 12 |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər – Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma | 51 | 12 | 16 | 13 | 29 | 3 | 124 |
| Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər | 1 | | - | | 1 | | 2 |
| Ədalət mühakiməsi əleyhinə olan cinayətlər | 15 | 1 | 3 | | 4 | | 23 |
| Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər | 27 | 10 | 8 | 6 | 15 | 2 | 68 |
| Hərbi xidmət əleyhinə olan cinayətlər | 1 | 10 | 1 | 4 | 5 | 4 | 25 |
| Cəmi | 1199 | 236 | 303 | 204 | 454 | 25 | 2420 |

## 2.12. Hökmün icrası qaydasında baxılan işlərin apelyasiya məhkəmələr üzrə bölgüsü

| Müraciətin əsası | Bakı Apellyasiya Məhkəməsi | | | Gəncə Apellyasiya Məhkəməsi | | | Sumqayıt Apellyasiya Məhkəməsi | | | Şəki Apellyasiya Məhkəməsi | | | Şirvan Apellyasiya Məhkəməsi | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kassasiya protesti | Kassasiya şikayəti | Cəmi | Kassasiya protesti | Kassasiya şikayəti | Cəmi | Kassasiya protesti | Kassasiya şikayəti | Cəmi | Kassasiya protesti | Kassasiya şikayəti | Cəmi | Kassasiya protesti | Kassasiya şikayəti | Cəmi |
| Cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə | 15 | 37 | 52 | | 4 | 4 | | | | 1 | 32 | 33 | | | |
| Xəstəliyə görə cəzanı çəkməkdən azad etmə | | 2 | 2 | | | | | | | | | | | | |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrasından boyun qaçıran şəxsə təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi | 1 | 2 | 3 | | | | | 1 | 1 | | | | | | |
| Cəzasının çəkilməsi təxirə salınmış məhkumun cəzadan azad edilməsi | | | | | | | | | | | 2 | 2 | 1 | 1 | 2 |
| Məhkumluğun vaxtından əvvəl götürülməsi | | 1 | 1 | | | | | 1 | 1 | | 1 | 1 | | 1 | 1 |
| Tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin dəyişdirilməsi | 3 | 2 | 5 | | | | | | | | | | | | |
| Şərti məhkumetmənin ləğv edilməsi, məhkumun məhkəmənin hökmü ilə təyin edilmiş cəzanın çəkilməsi üçün göndərilməsi | | | | | | | | 1 | 1 | | | | | | |
| Cəzaçəkmə müəssisələrinin növünün dəyişdirilməsi | 2 | 16 | 21 | | | | | 1 | 1 | | 9 | 9 | | 5 | 5 |
| Azadlığın məhdudlaşdırılması növündə cəza çəkən məhkumun üzərinə əvvəllər qoyulmuş vəzifələrin dəyişdirilməsi | | | | | | | | | | | | | | 1 | 1 |
| Digər əsas | 2 | 33 | 35 | | 2 | 2 | | | | | 3 | 3 | 1 | 2 | 3 |
| Cəmi: 189 iş | 23 | 96 | 119 | | 6 | 6 | | 4 | 4 | 1 | 47 | 48 | 2 | 11 | 12 |

## 2.13. İcraatda olmuş işlərin indekslərinə görə apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar[1]

| İllər | Bakı Apellyasiya Məhkəməsi | Sumqayıt Apellyasiya Məhkəməsi | Gəncə Apellyasiya Məhkəməsi | Şirvan Apellyasiya Məhkəməsi | Şəki Apellyasiya Məhkəməsi | Naxçıvan MR Ali Məhkəməsi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **Cinayət işləri (1 və 1-1 indeksləri)** | | | | | | | |
| 2023 | 1231 | 256 | 278 | 526 | 224 | 15 | 2530 |
| 2024 | 1333 | 329 | 261 | 504 | 212 | 25 | 2664 |
| Artıb-azalma faizləri | +8,3% | +29% | -6% | -4,2% | -5,4% | +67% | +5,3% |
| **Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri)** | | | | | | | |
| 2023 | 80 | 10 | 8 | 6 | 5 | 2 | 111 |
| 2024 | 119 | 4 | 6 | 12 | 48 | - | 189 |
| Artıb-azalma faizləri | +49% | -60% | -25% | +100% | +8,6 dəfə | | +70% |
| **Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 indeksi)** | | | | | | | |
| 2023 | - | 1 | - | 1 | - | - | 2 |
| 2024 | - | 1 | - | 1 | - | - | 2 |
| Artıb-azalma faizləri | - | - | - | - | - | - | - |
| **Cəmi** | | | | | | | |
| 2023 | 1311 | 266 | 286 | 533 | 229 | 17 | 2643 |
| 2024 | 1452 | 334 | 267 | 517 | 260 | 25 | 2855 |
| Artıb-azalma faizləri | +11% | +26% | +7% | -3% | +14 | +47 | +8% |

[1] Məlumatlar şəxslərə münasibətdə göstəriciləri əks etdirir.

## 2.14. Baxılmış işlərin nəticələrinin apellyasiya məhkəməsinə münasibətdə bölgüsü üzrə məlumatlar

Hesabat dövründə Cinayət kollegiyasında baxılmış işlərin nəticələri apellyasiya instansiyası məhkəmələrinə münasibətdə aşağıdakı kimi olmuşdur:

| Məhkəmələr | Baxılmış işlərin cəmi (şəxslərə görə) | | Dəyişdirilmədən saxlanılmış (şəxslərə görə) | | Ləğv edilmiş (şəxslərə görə) | | Dəyişdirilmiş (şəxslərə görə) | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2023 | 2024 | 2023 | 2024 | 2023 | 2024 | 2023 | 2024 |
| Bakı Apellyasiya Məhkəməsi | 1311 | 1452 | 1022<br>78.0% | 1233<br>84.9% | 144<br>11.0% | 95<br>6.5% | 145<br>11.1% | 124<br>8.5% |
| Gəncə Apellyasiya Məhkəməsi | 286 | 267 | 230<br>80.4% | 217<br>81.3% | 41<br>14.3% | 27<br>10.1% | 15<br>5.2% | 23<br>8.6% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 266 | 334 | 219<br>82.3% | 267<br>80.2% | 23<br>8.6% | 14<br>4,2% | 24<br>9.0% | 53<br>15.9% |
| Şirvan Apellyasiya Məhkəməsi | 533 | 517 | 453<br>85.2% | 419<br>81.2% | 43<br>8.1% | 34<br>6.6% | 37<br>6.8% | 63<br>12.2% |
| Şəki Apellyasiya Məhkəməsi | 230 | 260 | 192<br>83.4% | 219<br>84.2% | 19<br>8.3% | 28<br>10.8% | 19<br>8.3% | 13<br>5.0% |
| Naxçıvan MR Ali Məhkəməsi | 17 | 25 | 15<br>88.2% | 23<br>92.0% | 1<br>5.9% | -<br>- | 1<br>5.9% | 2<br>8.0% |
| Yekunu | 2643 | 2855 | 2131 | 2378 | 271 | 198 | 241 | 278 |
| Yekun faiz göstəricisi | 100% | 100% | 80,6% | 83,3% | 10,2% | 7% | 9,2% | 9,7% |

## 2.15. Ali Məhkəmədə cinayət məhkəmə icraatında qəbul edilmiş vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları (★★★ statuslu qərarlar)

***Ali Məhkəmənin sədrinin məhkəmə aidiyyətinin müəyyən edilməsi ilə bağlı qərarları***

| Qərarın nömrəsi | Qərarın tarixi |
|---|---|
| 1-8/1-708/2024 | 11.06.2024 |
| 1-8/1-500/2024 | 30.04.2024 |
| 1-8/1-1647/2024 | 24.09.2024 |
| 1-8/1-1870/2024 | 14.10.2024 |

***Cinayət kollegiyasında kassasiya qaydasında baxılmış qərarlar***

| № | Qərarın mahiyyəti | Qərarın nömrəsi | Qərarın tarixi |
|---|---|---|---|
| 1 | Əməlin tövsifi | 1(102)-444/2024<br>1(102)-464/2024<br>1(102)-732/2024<br>1(102)-293/2024<br>1(102)-1931/2024<br>1(102)-2143/2024<br>1(102)-2154/2024<br>1(102)-2339/2024<br>1(102)-1861/2024 | 20.02.2024<br>28.02.2024<br>16.04.2024<br>22.05.2024<br>20.09.2024<br>03.10.2024<br>03.10.2024<br>17.10.2024<br>27.09.2024 |
| 2 | Cinayət məsuliyyətinə cəlbetmə müddətinin axımının başlanması | 1(102)-28/2024<br>1-1(102)-37/2024 | 08.02.2024<br>28.06.2024 |
| 3 | CM-in 79-cu maddəsinin tətbiqi | 1(102)-40/2024<br>7(102)-19/2024 | 22.02.2024<br>16.05.2024 |
| 4 | Bəraətin əsasları | 1(102)-562/2024<br>1(102)-2034/2024 | 14.03.2024<br>04.10.2024 |
| 5 | Cəza müddətinin hesablanması | 7(102)-134/2024 | 28.06.2024 |
| 6 | CM-in 62-ci maddəsinin tətbiqi | 1(102)-1249/2024 | 25.06.2024 |
| 7 | CM-in 74-cü maddəsinin tətbiqi | 1(102)-1472/2024 | 02.07.2024 |
| 8 | Mülki iddia məbləğinin hissə-hissə icra edilməsi | 7(102)-193/2024 | 27.11.2024 |
| 9 | Maddi sübutların taleyi | 1(102)-1206/2024 | 24.09.2024 |

AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# III BÖLMƏ

# İNZİBATİ KOLLEGİYA

03

## 3. Ali Məhkəmənin İnzibati kollegiyasının fəaliyyətinə dair ümumi məlumat

Hesabat dövründə Azərbaycan Respublikasının Ali Məhkəməsində ədalət mühakiməsinin keyfiyyətinin artırılması, məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin edilməsi və vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədilə Məhkəmə təcrübəsi üzrə yeni axtarış sistemi yaradılmışdır. İnzibati Kollegiya tərəfindən müxtəlif inzibati işlər üzrə müvafiq kateqoriyalar və alt kateqoriyalar həmin axtarış sisteminə daxil edilmişdir. Bununla da, aşağı instansiya məhkəmələri, o cümlədən geniş ictimaiyyət bu sistem vasitəsilə İnzibati Kollegiyada baxılan işlər üzrə konkret mübahisə predmetinə aid kateqoriya, alt kateqoriya və ya digər seçimlər etməklə kassasiya instansiya məhkəməsinin hüquqi mövqeyini asan şəkildə öyrənə biləcəklər.

"İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2015-ci il 10 aprel tarixli 4 nömrəli qərarına əlavə və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2024-cü il 9 oktyabr tarixli 9 nömrəli qərarı qəbul edilmişdir.

Hesabat ilində Azərbaycan Respublikasının inzibati və apellyasiya məhkəmələrinə əlilliyin  müəyyən edilməsi, dəyişdirilməsi və ləğvi ilə bağlı mübahisələr üzrə 2022-ci ildə inzibati məhkəmələrdə baxılmış işlərin məhkəmə təcrübəsinin ümumiləşdirilməsinin nəticələri üzrə tərtib edilmiş icmal hesabat, eləcə də vergi mübahisələrinin ərazi aidiyyətinin müəyyənləşdirilməsinə dair müvafiq izahlar təqdim edilmişdir.

Türkiyə Respublikasının Ali İnzibati Məhkəməsi (Danıştay) ilə təcrübə mübadiləsi proqramı çərçivəsində Azərbaycan Respublikasından bir qrup hakimi və Ali Məhkəmənin Cinayət, inzibati və plenum işlərinin təşkili şöbəsinin İnzibati işlər üzrə sektorun müdiri və məsləhətçisi 2024-cü ilin 19-29 fevral tarixlərində Türkiyə Respublikasına ezam olunmuşlar. Keçirilən görüşlər zamanı inzibati orqanlara məhkəmə nəzarətinin hədləri, inzibati orqanların inzibati icraat aparmasına təşviq və məcburetmənin yolları, "Elektron məhkəmə" informasiya sisteminin üstünlüklərindən faydalanma, yazılı icraatın həyata keçirilmə mexanizmləri, inzibati məhkəmə icraatında süni intellektin imkanlarından istifadə və digər mövzularda fikir mübadiləsi aparılmışdır.

İnzibati məhkəmə icraatı sahəsində məhkəmə qərarlarının sabitliyinin və vahid məhkəmə təcrübəsinin bərqərar olmasının təmin edilməsi məqsədi ilə İnzibati Kollegiya tərəfindən təkrar kassasiya icraatında olan apellyasiya instansiyası məhkəmələrinin qərarlarının ləğvi əsasları təhlil edilmişdir.

Ötən dövr ərzində İnzibati Kollegiya beynəlxalq əməkdaşlığın artırılması istiqamətində də fəaliyyət göstərmişdir. Belə ki, İnzibati Kollegiyanın sədri və hakimləri Gürcüstan, Türkiyə, Qazaxıstan, Özbəkistan və digər dövlətlərdə səfərlərdə olmuşlar.

Hesabat dövründə Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən həyata keçirilən "Femida Dialoq Platforması" çərçivəsində, habelə İnzibati Kollegiyanın təşkilatçılığı ilə ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələrinin hüquq

fakültələrinin professor-müəllim heyəti, eləcə də İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin, Dövlət Vergi Xidmətinin və digər inzibati orqanların nümayəndələri ilə ikitərəfli görüşlər keçirilmiş, inzibati işlərin icraatı üzrə Ali Məhkəmənin vahid məhkəmə təcrübəsi yaradan qərarlarının öyrənilməsi, onlara dair elmi izahların, şərhlərin verilməsi və tədrisi ilə bağlı, habelə inzibati məhkəmə icraatının problemli məsələləri ilə əlaqədar müzakirələr aparılmışdır.

Bundan başqa, 2024-cü il iyunun 14-də Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclasında 2023-cü ildə Gəncə İnzibati Məhkəməsində qanunvericiliyin tətbiqinin məhkəmə təcrübəsinə və ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumatlar dinlənilmişdir.

İnzibati məhkəmə icraatı sahəsində məhkəmə qərarlarının sabitliyinin və vahid məhkəmə təcrübəsinin bərqərar olmasının təmin edilməsi məqsədi ilə İnzibati Kollegiyanın “İnzibati məhkəmə icraatında kassasiya şikayətinin mümkünlüyünə dair” 2023-cü il 06 noyabr tarixli 01/2023 nömrəli qərardadının icrası ilə bağlı müvafiq addımlar atılmış, məhkəməyə daxil olan hər bir inzibati iş üzrə ayrı-ayrılıqda vahid məhkəmə təcrübəsinin tətbiqi vəziyyəti ilə bağlı arayışlar tərtib edilərək İnzibati Kollegiyanın hakimlərinə təqdim edilmişdir.

İnzibati məhkəmə icraatı sahəsində məhkəmə qərarlarının sabitliyinin və vahid məhkəmə təcrübəsinin bərqərar olmasının təmin edilməsi məqsədi ilə İnzibati Kollegiyanın sədri tərəfindən aşağı instansiya məhkəmələrinin hakimlərinin iştirakı ilə onlayn videokonfrans formatında aylıq görüşlər keçirilmiş, təcrübədə rast gəlinən mübahisəli hüquqi məsələlərə dair suallar ətrafında müzakirələr aparılaraq müvafiq izahlar verilmişdir.

İnzibati kollegiyanın hakimləri 2024-cü il ərzində Ali Məhkəmənin qanunvericiliyin təkmilləşdirilməsi üzrə fəaliyyətində iştirak etmişlər. Belə ki, Azərbaycan Respublikasının İnzibati Prosessual və Vergi Məcəllələrinə, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununa dəyişikliklər edilməsinə dair qanun layihələri hazırlanmışdır.

İnzibati Kollegiyanın sədri və hakimləri tərəfindən televiziya yayımı vasitəsi ilə məhkəmələrdə inzibati işlərə baxılmasının xüsusiyyətləri, məhkəmə sistemində müasir çağırışlar, məhkəməyə müraciət və şikayət verilməsi qaydaları, müəyyən kateqoriya inzibati işlərinin xüsusiyyətləri, inzibati mübahisələr üzrə məhkəmə icraatının effektivliyini və optimallığını artırmaq istiqamətində görülən tədbirlər və digər mövzularda maarifləndirici çıxışlar edilmişdir.

2024-cü il ərzində İnzibati Kollegiyanın sədri tərəfindən 237 nəfər vətəndaşın qəbulu (14 qəbul) həyata keçirilmişdir.

## 3.1. Ölkə üzrə inzibati məhkəmə icraatında yekunlaşdırılmış işlər barədə ümumi məlumat

Hesabat dövründə ölkə üzrə 34.100 inzibati mübahisəyə baxılmışdır ki, həmin iş yükünün məhkəmə instansiyaları üzrə bölgüsü aşağıdakı diaqramlarda əks etdirilmişdir:




*Yekunlaşdırılmış inzibati işlərin son 5 il üzrə dinamikası:*




*Ötən ilin müvafiq göstəriciləri ilə müqayisə*

| Birinci instansiya məhkəmələri üzrə | Apellyasiya instansiyası məhkəmələri üzrə | Ali Məhkəmə üzrə |
|---|---|---|
| - 8,7% | + 11% | + 21,5% |

## 3.2. İnzibati məhkəmə icraatı nəticəsində qəbul edilmiş məhkəmə qərarlarının sabitliyi üzrə kəmiyyət göstəriciləri

Hesabat dövründə inzibati məhkəmələrdə çıxarılmış aktların sabitliyi üzrə kəmiyyət göstəriciləri aşağıdakı kimi olmuşdur:

| | Birinci instansiya məhkəmələrində yekunlaşdırılmış işlərin sayı | Apellyasiya qaydasında yekunlaşdırılmış işlərin sayı | Faiz göstəricisi | Apellyasiya instansiya məhkəməsi tərəfindən ləğv edilmiş qərarların | Qərarların ləğv faizi | Qərarların sabitlik faizi |
|---|---|---|---|---|---|---|
| 2023 | 26613 | 5767 | 21,6% | 1472 | 5,5% | 94,5% |
| 2024 | 24300 | 6396 | 26,3% | 1449 | 6% | 94% |

Hesabat dövründə apellyasiya instansiya məhkəmələrinin aktlarının sabitliyi üzrə kəmiyyət göstəriciləri aşağıdakı kimi olmuşdur:

| | Apellyasiya instansiya məhkəmələrində yekunlaşdırılmış işlərin sayı | Kassasiya qaydasında yekunlaşdırılmış işlərin sayı | Faiz göstəricisi | Kassasiya instansiya məhkəməsi tərəfindən ləğv edilmiş qərarların sayı | Qərarların ləğv faizi | Qərarların sabitlik faizi |
|---|---|---|---|---|---|---|
| 2023 | 5767 | 2801 | 48,5% | 491 | 8,5% | 91,5% |
| 2024 | 6396 | 3404 | 53,2% | 509 | 8% | 92% |

## 3.3. İnzibati kollegiyanın icraatında olmuş işlər barədə ümumi məlumatlar

Hesabat dövründə İnzibati kollegiyanın icraatında olmuş işlər, o cümlədən qalıq keçmiş işlər, daxil olmuş işlər, həmin işlərdən yekunlaşdırılmış və növbəti hesabat dövrünə qalıq keçmiş işlərlə bağlı statistik məlumatlar aşağıdakı diaqramlarda əks etdirilmişdir:

| Göstəricilər | 2023-cü il | 2024-cü il | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat | 3756 | 4438 | +18,1% |
| Ötən hesabat dövründən qalıq keçən işlər | 560 (15%) | 955 (21,5%) | +70,5% |
| Hesabat dövründə daxil olan işlər | 3196 (85%) | 3483 (78,5%) | +9% |
| Yekunlaşdırılmış işlər | 2801 (74,5%) | 3404 (76,7%) | +21,5% |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 955 (25,5%) | 1034 (23,3%) | +8,3% |



## 3.4. İşlərin icraat növləri üzrə (indeks və predmetlər üzrə) bölgüsü

İl ərzində icraatda olan inzibati işlərin icraatların növü üzrə (indeks üzrə) bölgüsü aşağıdakı qaydada olmuşdur:

| İcraatın növü | 2023-cü il | 2024-cü il | Artıb-azalma faizləri | 2024-cü il (yekunlaşdırılmış işlər faiz göstəriciləri ilə) |
|---|---|---|---|---|
| İnzibati işlər (iddia icraatı) | 3756 | 4438 | +18,1% | 3404 (76,7%) |
| Onlardan: qərar | 2804 | 3251 | +16% | 2518 (78,2%) |
| Onlardan: qərardad | 740 | 856 | +15,7% | 645 (75,3%) |
| Müvəqqəti xarakterli müdafiə tədbiri barədə ərizə üzrə icraat | 126 | 258 | +104% | 176 (68,2%) |
| Apellyasiya instansiya məhkəməsinin birinci instansiya məhkəməsi qismində baxdığı işlər üzrə icraat | 23 | 53 | 2,3 dəfə artım | 48 (90,5%) |
| Aidiyyət mübahisələri | 12 | 13[1] | +8,3% | 13 (100%) |
| Məhkəmə qərarlarının icrası qaydasında icraat | – | 6 | – | 3 (50%) |
| Apellyasiya məhkəmə tərkibinə etiraz | – | 1 | – | 1 (100%) |

## 3.5. İnzibati kollegiyada yekunlaşdırılmış işlərin iddianın növləri üzrə bölgüsü

Hesabat dövründə İnzibati kollegiyada yekunlaşdırılmış işlərin (cəmi 3404 iş üzrə) iddianın növünə görə bölgüsü aşağıdakı kimi olmuşdur:




[1] Həmin işlərdən 8 iş aşağı instansiya məhkəmələrinin müraciəti üzrə, 5 iş isə aidiyyətlə bağlı məhkəmə qərardadının kassasiya qaydasında mübahisələndirilməsi ilə daxil olmuşdur.

## 3.6. Kassasiya şikayətinin mümkünlüyünə dair statistik məlumatlar




*Apellyasiya instansiyası məhkəmələri üzrə göstəricilər (yekunlaşdırılmış işlərə münasibətdə faizlə)*



***Kassasiya şikayətlərinin mümkün sayılmaması əsasları:***




Formal xarakterli əsaslar (25,7%)

Məhkəmə aktının formalaşdırılmış vahid məhkəmə təcrübəsinə uyğun olması və kassasiya şikayətində məhkəmə təcrübəsini dəyişdirməyə yönələn dəlillərə istinad edilməməsi (74,3%)

**Cəmi: 1167**

***Kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsi ilə bağlı illər üzrə göstəricilər***




## 3.7. Aidiyyət mübahisələri ilə bağlı məlumatlar




1. Bakı AM 2 iş
2. Sumqayıt İnzibati M 4 iş
3. Sumqayıt AM 2 iş
4. Gəncə İnzibati M 1 iş
5. Gəncə AM 1 iş
6. Şəki AM 2 iş
7. Şirvan AM 1 iş

| İllər | Cəmi | Ərazi aidiyyəti üzrə səlahiyyətli məhkəmənin müəyyən edilməsi | | Predmet aidiyyəti üzrə səlahiyyətli məhkəmənin müəyyən edilməsi |
|---|---|---|---|---|
| | | inzibati məhkəmələr üzrə | apellyasiya məhkəmələri üzrə | |
| 2023 | 12 | 11 | 1 | – |
| 2024 | 13 | 13 | – | – |
| Artıb-azalma faizləri | +8,3% | +18,2% | – | – |




## 3.8. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsü

| Məhkəmələr | Daxil olan işlər | | | Yekunlaşdırılmış işlər | | |
|---|---|---|---|---|---|---|
| | 2023 | 2024 | Artıb-azalma faizi | 2023 | 2024 | Artıb-azalma faizi |
| Bakı Apellyasiya Məhkəməsi | 1982 | 2102 | +6% | 1766 | 2062 | +16,7% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 382 | 472 | +23,5% | 339 | 416 | +22,7% |
| Gəncə Apellyasiya Məhkəməsi | 305 | 319 | +4,5% | 235 | 361 | +54% |
| Şəki Apellyasiya Məhkəməsi | 364 | 317 | -13% | 309 | 345 | +11,6% |
| Şirvan Apellyasiya Məhkəməsi | 132 | 201 | +53% | 124 | 155 | +25% |
| Naxçıvan MR Ali Məhkəməsi | 22 | 64 | 2,9 dəfə artım | 17 | 56 | 3,2 dəfə artım |

Daxil olan işlər kütləsi




Həll edilən işlər kütləsi




## 3.9. Baxılmış işlərin nəticələrinə dair məlumatlar

Hesabat dövründə İnzibati kollegiyada mahiyyəti üzrə baxılmış işlərin nəticələri, o cümlədən vahid məhkəmə təcrübəsinə uyğun hesab edilmiş işlər apellyasiya instansiyası məhkəmələrinə münasibətdə bölgüsü aşağıdakı kimi olmuşdur:

| Məhkəmənin adı | Kassasiya qaydasında baxılmış işlərin sayı | | Dəyişdirilmədən saxlanılmış | | Ləğv edilmiş | | Dəyişdirilmiş | | İş üzrə icraata xitam verilmiş | | Vahid məhkəmə təcrübəsinə uyğun hesab edilmiş |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2023 | 2024 | 2023 | 2024 | 2023 | 2024 | 2023 | 2024 | 2023 | 2024 | 2024 |
| Bakı Apellyasiya Məhkəməsi | 1661 | 1809 | 1323 79,7% | 954 52,8% | 308 18,5% | 316 17,5% | 3 0,2% | 14 0,8% | 27 1,6% | 7 0,4% | 518 28,6% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 314 | 368 | 261 83,1% | 191 51,9% | 44 14% | 53 14,4% | 1 0,3% | 3 0,8% | 8 2,6% | 2 0,5% | 119 32,3% |
| Gəncə Apellyasiya Məhkəməsi | 213 | 313 | 165 76,7% | 181 57,8% | 46 21,4% | 44 14,1% | 2 0,9% | 6 1,9% | 2 0,9% | 2 0,6% | 80 25,6% |
| Şəki Apellyasiya Məhkəməsi | 279 | 324 | 211 75,6% | 171 52,8% | 59 21,1% | 69 21,3% | 6 2,2% | 1 0,3% | 3 1,1% | - | 83 25,6% |
| Şirvan Apellyasiya Məhkəməsi | 109 | 142 | 90 82,6% | 71 50% | 17 15,6 % | 22 15,5% | 6 2,2% | 1 0,7% | 2 1,8% | 1 0,7% | 47 33,1% |
| Naxçıvan MR Ali Məhkəməsi | 12 | 41 | 7 58,3% | 16 39% | 5 41,7% | 5 12,2% | - | - | - | - | 20 48,8% |
| Cəmi | 2590 | 2997 | 2057 79,4% | 1584 52,9% | 479 18,5% | 509 17% | 12 0,46% | 25 0,8% | 42 1,6% | 12 0,4% | 867 28,9% |

*İşlərin yekunlaşma göstəriciləri*




## 3.10. Yekunlaşdırılmış işlərin kateqoriyaları üzrə təhlil

*2023-cü il üzrə:*




Yerli icra hakimiyyəti orqanları (9,8%)

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və tabeliyində olan qurumlar (38,2%)

Əmlak Məsələləri Dövlət Xidməti və tabeliyində olan qurumlar (21,2%)

Dövlət Vergi Xidməti və tabeliyində olan qurumlar (11,6%)

